KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Uzun, çətin və şərəfli yol keçən milli mətbuatımız

**Milli mətbuatımızın banisi Həsən bəy Zərdabi vaxtilə Azərbaycanda azad və demokratik mətbuatın yaranması və inkişafı üçün çox mübarizə apardı və sonda istəyinə nail oldu. Bu gün biz ”Əkinçi”dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini milli mətbu-atımızın səhifələrindən öyrənirik” desək, məncə, tam yerinə düşərdi.**

O, zaman Azərbaycan dilində ”Əkinçi” qəzetinin nəşrə başlaması Azərbaycan mədəniyyəti üçün böyük əhəmiyyətli hadisə olmaqla yanaşı, həm də S.Ə.Şirvani, Ə.Gorani, N.Vəzirov, M.F.Axundov kimi Azərbaycanın mütərəqqi fikirli ziyalılarını bir araya toplanmasına da şərait yaratdı. Onlar bütün varlıqları ilə xalqın tərəqqisi, azadlığı uğrunda mücadiləyə qalxdılar. Bu isə hökuməti narahat etməyə bilməzdi. Odur ki, ”Mirzə Fətəlinin mücərrəd yazılarına səbirlə yanaşan çar hökuməti ilk siyasi qəzetin fəaliyyətinə laqeyd qalmadı, ”Əkinçi” bağlandı. Onun redaktoruna Bakıda Müsəlman Xeyriyyə Cəmiyyəti yaratmağa da icazə verilmədi. Bununla da sakitləşməyən çar hökuməti Həsən bəy Zərdabini realnı məktəbdən xaric edərək Bakıdan sürgün etdi.

Lakin artıq gec idi. Həsən bəy və onun amal dostları hər bir hərəkəti ilə xalqı milli oyanışa çağırırdı. ”Mirzə Fətəli Axundov qətiyyətlə inanırdı ki, onun həmvətənləri həmişə kor-koranə yaşamayacaqlar, köhnə təsəvvürlərini dəyişəcəklər, qorxubilməz bir qəhrəmanlıqla sivilizasiya yolunu seçəcəklər”.

Seçdilər də. Artıq 19-cu yüzilliyin ikinci yarısında Ünsizadə qardaşları, İsa Sultan Şahtaxtlı, 20-ci yüzilliyin əvvəllərində isə Məhəmməd ağa Şahtaxtlı, Mirzə Cəlil, Ömər Faiq əfəndi, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əli Mərdan bəy kimi onlarla Azərbaycanlı qələm əhli Həsən bəyin və Axundzadənin ənənələrini davam və inkişaf etdirdilər.

Rusiya müsəlmanları, o cümlədən azərbaycanlılar arasında maarifçilik hərəkatının qüvvətlənməsi, jurnalistikanın inkişafı, mədəni hərəkata rəhbərlik edən ziyalılar dəstəsinin ictimai fəaliyyət meydanına gəlməsi hakim dairələri narahat etməyə, onun qarşısını almaq üçün tədbir hazırlamağa məcbur etdi.

Peterburq Senzura Komitəsinin 1880-ci ildən etibarən Rusiya müsəlmanlarının mədəni həyatı üzərindəki müşahidələri əsasında baş senzor M.Smirnov geniş məruzə hazırladı. Daxili işlər nazirinin polis departamenti M.Smirnovun məruzəsi əsasında geniş təliqə hazırlayıb 1900-cü ilin 31 dekabrında bütün quberniyalara göndərdi. İyirmi il ərzində Rusiya müsəlmanlarının həyatında əmələ gələn tərəqqi hərəkatının başlıca xüsusiyyətlərini təhlil edən polis departamenti bunda mütləqiyyət quruluşu üçün bir təhlükə əlaməti gördü və bu təhlükəni aradan qaldırmaq üçün ən amansız təklifləri belə irəli sürürdü.

Əslində hökumət nümayəndəsinin bu narahatlığı əbəs deyildi. Azərbaycanda inqilabi hərəkatın genişlənməsi, xalqın milli tərəqqiyə doğru can atması və milli oyanışından vahiməyə düşən çarizm yenə də çıxış yolunu millətləri bir-birinin üstünə qaldırmaqda tapdı. Rus çar hökumət orqanları 1905-ci il fevralın 6-da erməni-müsəlman toqquşması salmaqla böyük bir fitnəkarlıq etdilər və birmənalı olaraq bu məsələdə azərbaycanlıları günahlandırmağa, cəzalandırmağa başladılar.

20-ci yüzilin əvvəllərində çap edilən milli mətbuatımızda bunu sübut edəcək yetərincə faktla rastlaşdıq. Bu haqda qocaman yazıçımız M.Süleymanov yazır: ”Çar hökuməti 1905-ci ildə erməni-müsəlman qırğını salmaqla inqilabi hərəkatın səmtini dəyişməyə cəhd edir. Vəziyyət daha da gərginləşir. Peterburqdan daxili işlər nazirinin müavini, məşhur cəllad Fon Vanı təcili Bakıya göndərirlər. Fon Vanın Bakıya gəlməsi ilə kütləvi həbslər başlanır. Amansız zorakılıq, zülm, həbs gücünə vəziyyəti qismən sakitləşdirirlər. 1906-cı ildə Çar Nikolayın fərmanı ilə Bakıda şəhər rəisliyi (qorodonaçalstvo) yaranır. Martınov adında bir cəllad Bakı rəisi təyin edilir. O Martınov ki, müsəlmanların qənimi idi”. (Tarix təkrar olunur. XX əsrin əvvəllərində Martınov kimilər millətimizə qənim kəsildi, sonlarında Yazovdostlarının səpdikləri toxumlar cücərmişdi. Xalqın ziyalıları (xüsusən də imtiyaz sahibləri, məsələn Hacı Zeynalabdin Tağıyev bütün vəsaitini xalqının inkişafı, azadlığı yolunda sərf edirdi) xalqa dəstək oldular. Beləliklə, 1905-1907-ci illərdə ölkəmizdə mətbuat, maarif, mədəniyyət işi xeyli canlanmağa başladı.

Görkəmli tədqiqatçı alim Dilarə Seyidzadə 1905-ci ili haqlı olaraq milli mətbuatın təşəkkülü ili hesab edərək yazır: ”Mətbuat milli mənlik şüurunun formalaşması, ümummilli vəzifələrin təbliği, əhalinin siyasi səviyyəsinin yüksəldilməsi üçün əzmlə mübarizə aparırdı”.

Beləliklə, dövrün ictimai-siyasi hadisələri nəticəsində yaranan müxtəlif istiqamətli mətbu orqanları Azərbaycan cəmiyyətinin bütün təbəqələrində canlanmaya səbəb oldu. Bu sahədə mətbuatın gücünü Məmməd Əmin Rəsulzadə belə qiymətləndirirdi: ”Mətbuatın təsisi ilə Qafqazda siyasi, ictimai və milli bir fikir təşəkkül ediyordu”.




lar. Öz hüquqi azadlığı uğrunda mübarizəyə qalxan xalqımız həmin dövrdən başlayaraq bu günə kimi bir çox müsibətlərə düçar oldu).

Martınovun gəlişindən sonra Bakıda polis terroru daha da gücləndi və müsəlmanlara qarşı zorakılıq həddini aşdı. Belə ki, Bakı Quberniya jandarması Qafqaz çanişininə göndərdiyi məktubda yazırdı: ”Bakı həbsxanalarında daha boş yer qalmadığından məhbuslar ayrı-ayrı evlərdə saxlanılır”. Quberniya jandarmasının digər bir sənədindən də belə bəlli olur ki, məhbuslar yalnız azərbaycanlılar olub.

Hər cür qadağalar və məhdudiyyətlər barəsində danışmaq imkanı əldə etmiş Azərbaycan sahibkarları öz ideologiyasının simasında ilk dəfə olaraq tələblərini, hüquqlarını, arzu və istəklərini ifadə edib, ali hökumət instansiyalarına təqdim edirdilər. 1905-ci ilin aprel petisiyasında toplanmış, sonralar isə mətbuat səhifələrində konkretləşdirilən bu tələb, istəklər bütün xalqın mənafeyini əks etdirirdi. Bu da gələcəkdə yaranacaq siyasi partiya, təşkilat və cəmiyyətlərin siyasi platformalarının təməlini qoyurdu.

**“Həyat”ın gəlişi “İrşad”ı yol göstərənə çevirərək “Füyuzat”ın doğuşuna, “Həqiqət”in olduğuna, “Tərəqqi”nin labüdlüyünə, “Açıq söz”çülüyün yaranışına və “Azərbaycan”ın doğuşuna səbəb oldu. Bu doğuşdan vahimələnənlər ona qarşı səlib yürüşü elan edib, hər cür təhrif və böhtanlara əl atırdılar.**

Görkəmli tədqiqatçı və yazıçı Qılman İlkin ”Bakı və Bakılılar” adlı əsərində bu məsələləri çox gözəl, obyektiv, geniş şərh edib və dövrün mənzərəsini canlandıra bilib. Elə bu əsərdən də aydın olur ki, hökumət nə qədər güclü cəzalar, həbslər həyata keçirsə də, heç bir nəticə əldə edə bilməyib. Görülən tədbirlər fayda verməyib. Çünki, Həsən bəyin və onun amal

Beləliklə, ictimai-siyasi və inqilabi hadisələrin müxtəlif qütblərində dayanan, hər bir sinfin məfkurəsinə uyğun olan və ona xidmət edən mətbuat orqanları fəaliyyətə başladı. Bu mətbu orqanlar arasında milli-demokratik mətbuat diqqəti daha çox çəkirdi.

Çünki açıq fikirli ziyalıları, qüdrətli sənətkarları öz ətrafında birləşdirən bu mətbu orqanlar xalqın milli mənlik şüurunun,



**Qərənfil Dünyamin qızı, Filologiya üzrə fəlsəfə doktoru**

siyasi yetkinliyinin artmasına, ümummilli proqramların hazırlanmasına səbəb oldu. Rusiyanın tərkibində, siyasi hüquqsuzluq şəraitində olduğu dövrdə ilk dəfə Azərbaycana öz ümid və arzularını çar hökumətinə çatdırmaq imkanı verildi.

Azərbaycanın ictimai-siyasi, tarixi, mədəni həyatında yeni dövr kimi xarakterizə olunan XX əsrin əvvəlləri bütün fəaliyyət sahələrində olduğu kimi, mətbuatda da əsaslı dəyişmələrə səbəb oldu.

Bir çox ziyalımız, o cümlədən Əli bəy Hüseynzadə də türkdilli mətbuatın sıxışdırılması, senzura məhdudiyyətləri haqqında yazırdı. O, yazılarında müsəlmanlar üçün qoyulan hüquq məhdudiyyətlərini sadalayaraq hüquqsuzluq vəziyyətindən çıxmağın yollarını izah edərək, bütün yazarları yaranan şəraitdən maksimum faydalanmağa çağırır, ”bu hərəkata qarşı laqeyd durmayalım! Cərəyani-ümumiyyə qatılmamız, iştirak etməmiz lazımdır” deyirdi.

1905-ci ilin aprelində Zaqafqaziyanın ”müsəlman əhalisinin müvəkkilləri Əlimərdan bəy Topçubaşovun tərtib etdiyi petisiyanı Nazirlər Komitəsinə təqdim etdilər. Petisiyanı Bakı və Yelizavetpol quberniyalarının nümayəndələri Ə.Ağaoğlu, Ə.M. Topçubaşov, A.Ziyadxanov və başqaları imzaladılar. Bu petisiya - Qafqaz canişini L.L.Vorontsov-Daşkova da təqdim olunmuşdu. Bu vaxt - 1905-ci ilin əvvəllərində Qafqaz canişinlik idarəçiliyi yenidən yaradıldı və L.L.Vorontsov-Daşkov Qafqaza canişin təyin olundu. H.Z.Tağıyevin onunla şəxsi tanışlığı sayəsində 1905-ci il aprelin 22-də ”ilkin senzura şərti ilə” Bakıda tatar (Azərbaycan) dilində gündəlik ”Həyat” qəzetinin nəşrinə icazə verildi.

”Həyat”ın gəlişi ”İrşad”ı yol göstərənə çevirərək ”Füyuzat”ın doğuşuna, ”Həqiqət”in olduğuna, ”Tərəqqi”nin labüdlüyünə, ”Açıq söz”çülüyün yaranışına və ”Azərbaycan”ın doğuşuna səbəb oldu. Bu doğuşdan vahimələnənlər ona qarşı səlib yürüşü elan edib, hər cür təhrif və böhtanlara əl atırdılar.

Bu səlib yürüşü artıq əsrlərlədir davam edir. Amma nəticəsi yoxdur. Çünki xalq milli azadlığın bəhrəsini gördü, milli birliyin şahidi oldu. Bu azadlığın və birliyin əldə edilməsində MİLLİ MƏTBUATININ GÜCÜNÜ DƏRK ETDİ. UZUN İLLƏR XALQININ AZADLIĞI VƏ MİLLİ BİRLİYİ UĞRUNDA MÜBARİZƏ APARAN MİLLİ MƏTBUATIM, BAYRAMIN MÜBARƏK OLSUN!

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***